

RAMİZ İSMAYIL

## Görünür axı

İndi bildim sənin kim olduğunu,
Qəlbində küdurət, kin olduğunu.
Şeytan olduğunu, cin olduğunu
Mən dedim, demədim, görünür axı!

İblis doğulmusan, yoxsa bəndəmi?
Dar gündə gəzmədin dostu, həmdəmi.
Duymadın sevinci, bölmədin qəmi,
Mən dedim, demədim, görünür axı!

Ramizə atdığın qarmağı gördüm,
Gözümə tuşlanan barmağı gördüm,
Gördüm, sənin kimi axmağı gördüm,
Mən dedim, demədim, görünür axı!

***22.12.14 Bilgəh qəsəbəsi.***

## Sevgisiz həyat

Kərəmə nə var ki, bir dəfə yandı?!
Əlli ildi, ömür yanır canımda.
Tüstüsü çıxmağa bacası yoxdu,
Köksüm altda kömür yanır canımda.

Məcnuna nə var ki, çöllərə düşdü?!
Dərdini, qəmini özgələr çəkdi.
Əlim həsrət qaldi telinə, gülüm!
Sığalı, tumarı özgə əl çəkdi.

Mənim dərdim ki, var, adi dərd deyil.
Demirəm, od vurdun, daş atdın mənə.
Əlli il ömrümə yazılan deyil,
"Sevgisiz" bir həyat yaşatdın mənə.

## Yandım

Acı belə yandırmazdı,
Şirinin oduna yandım.
Ölən öldü, rəhmət ona,
Dirinin oduna yandım.

Çəkilməz dünyanın dərdi,
Duyan ərdi, dözən nərdi.
Bəxtimlə oynadım nərdi,
Zərinin oduna yandım.

Yoxuş çıxdım, bələn aşdım,
Çənə düşdüm, yolu çaşdım.
Bir gözələ könül açdım,
Birinin oduna yandım.

Mən Ramizəm, üzü yola,
Bəxt ilə girdim qol-qola.
Özüm ocaq ola-ola,
Pirinin oduna yandım.

## Qaçqın-köçkün adı

Açılmırdı qaş-qabağı,
Qəmi gözündən yağırdı.
Soruşmayın, deməyəcək,
Dərdi özündən ağırdı.

Gileyi yaşından deyil,
Əynindən, başından deyil.
Heç "ölüm" yaşında deyil,
"Olum"  yasından ağırdı.

Sərvəti, varı əsirdi,
Gorgahı, goru əsirdi.

Ocağı, qoru əsirdi,
Külü közündən ağırdı.

Bir də dönəcəkmi geri?!
Saman çöpü ümid yeri.
Qəribsəyən a yurd yeri,
Yolun izindən ağırdı.

Bu ayrılıq çox çəkəcək,
Sinəsinə dağ çəkəcək.
Öz-özünə ah çəkəcək,
Dərin hüzndən ağırdı.

Azalıb yaxını, yadı,
Qolundan tutan olmadı.
Ramiz, qaçqın-köçkün adı
Ölüm sözündən ağırdı!

## Nə qalıb ki?

Bəxtim yatıb, daha mənim
"Yatmağıma" nə qalıb ki?!
Yapışdim saman çöpündən,
Batmağıma nə qalıb ki?!

Karvan gedir, yönü bəlli,
Bu səfərin sonu bəlli.
Haqlamışam onu, bəlli,
Tutmağıma nə qalıb ki?!

Həyat sirlə doluymuş ki,
Müamması boluymuş ki,
Əl boydaca yoluymuş ki,
Çatmağıma nə qalıb ki?!

Danladım, döydüm gözümü,
Axır ki, duydum özümü.
Hərraca qoydum sözümü,
Satmağıma nə qalıb ki?!

Vaxt yetişir, Ramiz qağa!
Bürünüb beş arşın ağa,
Canımı qara torpağa
Qatmağıma nə qalıb ki?!

## Şükür, Allah

Qayıtmışam doğma yurda,
Güzarıma şükür, Allah!
Həsrət könlüm şəfa tapdı,
Azarıma şükür, Allah!

El-obamla "alverim" var,
"Son qazancım, son xeyrim var,
Bir qarış qəbir yerim var,
"Bazarıma" şükür, Allan!

Baş daşımı silən desin,
"Bu Ramizdir," bilən, - desin.
Ziyarətə gələn desin,
Məzarıma şükür, Allah!

## Qəm şairi

Çoxu sevgi şairidi,
Mən də oldum qəm şairi.
Sevə-sevə yaşadıram
Həm şeiri, həm şairi.

Məhəbbətdə dönük olan,
Eşqi dayaz, sönük olan,
Köksü qara kötük olan
Tapar bəxti kəm şairi.

Dərin mətləblər qandırar,
Ümid çırağı yandırar.
Qəlbindəki dərd sındırar,
Gözündəki nəm şairi.

## Köhnə yurd

Səndən ötrü ürəyimin
Başı göynəyər, köhnə yurd!
Gözlərimin qurumayan
Yaşı göynəyər, köhnə yurd!

Kimlə dərdi böləm daha,
Əcəl gəlmir öləm daha.
Ocaqdakı küləm daha,
Daşı göynəyər, köhnə yurd!

Məndə qalıb quru bədən,
Bağrım olub zədən-zədən.
Ömrün, günün qürub edən
Yaşı göynəyər, köhnə yurd!

Ramizin də ömrü bitər,
Dərdi yoxdur bundan betər.
Qərib eldə qəbri itər,
Nəşi göynəyər, köhnə yurd!